# ZƏMANƏT ŞƏRTLƏRİ

Dongfeng Avtomobilləri

*China Dongfeng Motor Industry Imp. & Exp. Co., Ltd. (DFMIEC)*

## 1. Ümumi məlumat

Bu sənəd China Dongfeng Motor Industry Imp. & Exp. Co., Ltd. (DFMIEC) şirkəti tərəfindən təqdim edilən zəmanət öhdəliklərini müəyyən edir. Zəmanət rəsmi distribyutor Global Automobiles LLC vasitəsilə satılmış hər bir avtomobilə şamil edilir.

Zəmanət müddəti avtomobilin ilk alıcıya satıldığı tarixdən qüvvəyə minir. Müddət zaman və ya yürüş ilə müəyyən edilir — hansı daha tez başa çatarsa, o tətbiq edilir.

Avtomobil istismar qaydalarına uyğun istifadə edildiyi halda və nasazlığın səbəbi istehsal qüsuru olduqda, rəsmi distribyutor nasaz hissələrin təmirini və ya dəyişdirilməsini təmin edir. Təmir və ya dəyişdirmə üsulu distribyutor tərəfindən müəyyən edilir. Dəyişdirilmiş hissələr istehsalçının mülkiyyətinə keçir.

## 2. Zəmanət müddətləri

| Kateqoriya | Əhatə dairəsi | Əsas zəmanət | Uzadılmış zəmanət* |
|---|---|---|---|
| **Güc ötürücü sistemi** | Yüksək gərginlik batareyası (High voltage battery pack); elektrik mühərrik və elektron idarəetmə bloku (drive motor and electronic control unit); daxili yanma mühərrik (xarici əlavə elementlər və sensorlar istisna olmaqla)( engine or range extender (excluding external accessories and sensors); sürətlər qutusu (xarici əlavə elementlər və sensorlar istisna olmaqla) (transmission assembly (excluding external accessories and sensors) | **8 il / 200 000 km** | **10 il / Limitsiz yürüş** |
| **Əsas hissələr** | Avtomobilin bütün hissələri, güc ötürücü sistemi, xüsusi hissələr, tez aşınmaya məruz qalan hissələr və kateqoriyalarında qeyd olunan hissələr istisna olmaqla. | **5 il / 150 000 km** | **7 il / 300 000 km** |
| **Xüsusi hissələr** | Rulmanlar (Bearings), amortizatorlar (shock absorbers), kürəvi dayaqlar (ball joints), qapı petlələri (door hinges), daxili üzləmə hissələri (interior trim parts), plastik və rezin hissələr/( plastic and rubber parts), yağ keçirməyən rezinlər (oil seals), maye keçirməyən rezinlər (gaskets), təkərin göbəyi (wheel hubs), yağ boruları (oil pipes), əyləc diskləri və barabanları (brake discs and drums) | **3 il / 100 000 km** | **3 il / 100 000 km** |
| **Tez aşınmaya məruz qalan hissələr** | Mühərrik yağı filtri (oil filter), yanacaq filtri (fuel filter), qoruyucular və relelər (fuses and relays), alışdırma şamları (spark plugs), 12V akkumulyator (12V battery), kondisioner filtri (A/C filter), hava filtri/(air filter), uzaqdan idarəetmə açarının batareyası (remote key battery), əyləc yastıqları/(Brake pads) | **6 ay / 10 000 km** | **6 ay / 10 000 km** |
| **Digər** | Şüşəsilən rezinlər (wiper blades), lampalar (bulbs) | **1 ay / 1 000 km** | **1 ay / 1 000 km** |

** Uzadılmış zəmanət yalnız aşağıdakı şərtlər yerinə yetirildikdə tətbiq olunur (bax: Bölmə 3).*

# 3. Uzadılmış zəmanət şərtləri

## 3.1. Uzadılmış zəmanətin tətbiq qaydası

Avtomobilin əsas hissələri üçün zəmanət: 5 il / 150 000 km əsas zəmanət müddətinin bitdikdən sonra, istehsalçı əlavə 2 il / 150 000 km (hansı daha tez başa çatarsa) müddətinə uzadılmış zəmanət təqdim edir.

Güc ötürücü sistemi: 8 il / 200 000 km əsas zəmanət müddətinin bitdikdən sonra, istehsalçı yürüş limiti olmadan əlavə 2 il zəmanət təqdim edir.

## 3.2. Uzadılmış zəmanət üçün ilkin tələblər

1. **İlk sahib:** Avtomobilin ilk satış tarixindən etibarən mülkiyyət hüququ dəyişdirilməməlidir. Yenidən satış zamanı uzadılmış zəmanət hüququ qüvvədən düşür.
2. **Qeyri-kommersiya istifadəsi:** Avtomobil taksi və ya digər gəlir məqsədli kommersiya fəaliyyətində istifadə olunmamalıdır.
3. **Müntəzəm texniki xidmət:** Avtomobil səlahiyyətli texniki xidmət şəbəkəsində planlı texniki xidmət cədvəlinə uyğun müntəzəm xidmətdən keçməlidir.
4. **Orijinal ehtiyat hissələri:** Təmir zamanı yalnız orijinal və ya istehsalçı tərəfindən təsdiq edilmiş ehtiyat hissələrindən istifadə olunmalıdır.

## 3.3. Uzadılmış zəmanətə daxil olmayan komponentlər

Tez aşınmaya məruz qalan hissələr, xüsusi hissələr (3 il / 100 000 km) və "Digər" kateqoriyasına aid hissələr uzadılmış zəmanətə daxil edilmir. Bu komponentlərə yalnız əsas zəmanət tətbiq olunur.

# 4. Ehtiyat hissələrinə zəmanət

Rəsmi distribyutor tərəfindən quraşdırılmış və ya satılan bütün yeni orijinal ehtiyat hissələrinə quraşdırıldığı və ya satıldığı gündən 1 il / 20 000 km zəmanət verilir (tez aşınmaya məruz qalan və "Digər" kateqoriyalarında göstərilən hissələr istisna olmaqla).

Avtomobilin zəmanəti çərçivəsində dəyişdirilmiş orijinal ehtiyat hissəsi üçün zəmanət müddəti həmin hissənin kategoriyasında göstərilən müddət ərzində etibarlıdır (tez aşınmaya məruz qalan və "Digər" kateqoriyalarında göstərilən hissələr hissələr istisna olmaqla).

### 5. **Zəmanət aşağıdakı avtomobil hissələrini və aşağıda qeyd olunan səbəblərdən yaranan qüsurları əhatə etmir:**

1) Avtomobildən nəzərdə tutulmayan məqsədlər üçün istifadə, məsələn, yarış, ralli, habelə avtomobilin icazə verilən ümumi çəkisini aşmaq, müvafiq avadanlıq olmadan qoşqudan istifadə etmək və icazə verilən çəkidən artıq qoşqu çəkmək;

2) yol-nəqliyyat hadisələri;

3) səlahiyyəli servis mərkəzinə, avtomobilin idarəetmə sistemlərinin göstərişlərinə baxmayaraq, müştəri tərəfindən texniki xidmət üçün vaxtında verilməməsi və ya nasaz avtomobilin vaxtında təmir edilməsi üçün verilməməsi;

4) rəsmi distribyutorun əvvəlcədən razılığını almadan avtomobilin avadanlığına və konstruksiyasına dəyişiklik və ya əlavələr edilməsi;

5) İstismar materiallarının (əyləc mayesi, soyuducu maye, mühərrik və transmissiya yağları) çatışmamazlığı halında avtomobildən istifadə və ya tövsiyə olunmayan

materialların istifadəsi;

6) uyğun olmayan yanacaqdan, və uyğun olmayan yağlardan istifadə, yanacaq və maye qatqılardan istifadə;

7) təkərlər;

8) qeyri-peşəkar təmir və ya texniki xidmət, lazimi qaydada olmayan qulluq və saxlanılması;

9) avtomobilin maksimal (at) gücünü və ya avtomobilin növündə dəyişikliklər;

10) ox yükünün icazə verilən dəyərlərindən və yedəyə alınan yükün maksimal çəkidən artıq olması;

11) xüsusi avadanlıqdan istifadə etmədən demontaj zamanı əldə edilən kənar təsirlər (məsələn, dəri sükanın cızılması); mexaniki sükan kilidindən dəridəki batıqlar, zərbədən və ya mexaniki təsirdən taxta elementlərdə zədələnmənin izləri və s. kimi hallar;

12) Təbii sürtünmə və işləmə nəticəsində yaranan aşınma;

13) avtomobildən taksi, çatdırılma, təlim və sayıra kimi xidmətlərə istifadə etmək;

14) qeyri-orijinal aksesuarlardan və ehtiyat hissələrindən istifadəsi nəticəsində yaranmış nasazlıq;

15) "İstismar kitabçasında" və “Avtomobil sahibinin öhdəlikləri” bölməsində göstərilmiş avtomobilin qulluq qaydalarının pozulması;

16) fors-major hallar (ildırım, yanğın, təbii fəlakətlər, zəlzələlər, hərbi əməliyyatlar, iğtişaşlar, terror aktları və s.);

17) avtomobilin və ya onun elementlərinin xüsusiyyətlərinə və işinə təsir etməyən zəif kənar səslər, cırıltı, titrəmə və s., həmçinin, avtomobilin interyer elementlərinin (avtomobilin idarəetmə alətləri və paneli; oturacaqlar; qapıların, damın, yan panellərin, döşəmə elementlərinin daxili dekorativ örtükləri; kəmərlər; kiçik əşyaların saxlanması üçün bölmələr (əlcək qutuları, ciblər); günəş pərdələri və üzlüklər ; və s.) istismarına təsir etməyən səslər, səs-küy, cırıltı, vibrasiya və s.;

18) xarici və daxili işlənmənin, boya örtüklərinin detallarının təbii olaraq köhnəlməsi, aşınması;

19) istənilən dolayı zərər, (avtomobildən istifadənin mümkünsüzlüyü, rahatsızlıq və maliyyə itkiləri, nəqliyyat və kommunikasiya xərcləri, və s.;

20) avtomobil sahibinə əvvəlcədən yazılı şəkildə məlumat verilmiş qüsurlar;

21) lak-boya örtüyü, rəngləmə işləri, boya qatının zədələnməsi və kosmetik qüsurları;

22) istehsalçının xətası ilə əlaqəsi olmayan bütün hallar;

23) Nasazlıqdan sonra istismarın davam etdirilməsi nəticəsində artan zədələnmə.

# 6. Yüksək gərginlikli batareya — xüsusi şərtlər

**Yüksək gərginlikli batareyasında yaranan nasazlığın səbəbi aşağıdakı hallardan biri olduğu təqdirdə, nasazlıq zəmanət çərçivəsində təmir və ya dəyişdirilməyəcəkdir**:

| № | Yüksək gərginlikli batareya ilə bağlı zəmanətdən istisna halları |
|---|---|
| 1 | Avtomobilin +49°C-dən yüksək temperatur şəraitində 24 saatdan artıq qalması. |
| 2 | Avtomobilin -25°C-dən aşağı temperatur şəraitində 7 gündən artıq qalması. |
| 3 | Batareyanın enerji səviyyəsi (SOC) sıfır (0%) və ya sıfıra yaxın halda 14 gündən artıq park edilməsi. |

| | |
|---|---|
| **4** | Batareya 98-100% enerji səviyyəsində olmasına baxmayaraq şarj etmək,həmçinin şarj tamamlandıqdan sonra 48 saatdan artıq kabelinin ayrılmaması. |
| **5** | Batareyanın suya və ya digər mayelərə məruz qalması. |
| **6** | İcazəsiz sökülmə və ya istehsalçı tərəfindən tanınmayan texniki heyət tərəfindən təmir. |
| **7** | Yanlış şarj prosedurları və ya uyğun olmayan şarj avadanlığından istifadə. |
| **8** | Batareyaya qəsdən zərər verilməsi və ya istismar müddətinin bilərəkdən azaldılması. |

**Qeyd:** *Yuxarıda qeyd olunan göstəricilər və parametrlər rəsmi diaqnostika avadanlığı vasitəsilə yoxlanılır və təsdiq olunur.*
*Yüksək gərginlikli batareya və akkumulyatorla (12V) bağlı hər hansı nasazlığın aradan qaldırılması (şarj edilməsi, dəyişdirilməsi, və s.) yalnız istehsalçı tərəfindən təqdim edilən xüsusi cihaz vasitəsi ilə yoxlanıldıqdan sonra baş verə bilər.*

# 7. Planlı texniki xidmət

Planlı texniki xidmət zəmanətin vacib tələbidir və yalnız rəsmi distribyutor tərəfindən müəyyən edilmiş texniki xidmət mərkəzlərində həyata keçirilə bilər.

## Texniki xidmətin əhəmiyyəti

İstismar zamanı avtomobilin bütün hissələri qaçılmaz olaraq aşınmaya məruz qalır. Aşınma həddini keçmiş hissələrin və komponentlərin davamlı istifadəsi nasazlıqlara və hətta yol-nəqliyyat hadisəsinə səbəb ola bilər. Avtomobilin idarə olunmasının təhlükəsizliyini təmin etmək üçün vaxtlı-vaxtında texniki baxışlardan keçmək, həmçinin düzgün qulluq və təmir etmək zəruridir.

Texniki xidmət avtomobilin cari vəziyyətinin müəyyən edilməsinə, komponentlərin profilaktik təmirinə və ciddi problemlərin qarşısının alınmasına imkan verir. Vaxtında keçirilən texniki baxış avtomobilin təhlükəsiz idarə olunmasını və istismar keyfiyyətinin uzun müddət saxlanılmasını təmin edir.

> **DİQQƏT:** Planlı texniki xidmət cədvəlinə əməl etmək zəmanətin mütləq şərtidir. Hər hansı xidmətdən imtina və ya vaxtında keçməmək zəmanətin ləğv edilməsi deməkdir. Bütün xərcləri müştəri qarşılayır.

# 8. Ödənişli xidmətlər

Aşağıdakı işlər zəmanətə daxil deyil və avtomobil sahibinin hesabına həyata keçirilir:

| № | Ödənişli xidmətlər (zəmanətə daxil deyil) |
|---|---|
| 1 | Yanacaq sisteminin təmizlənməsi |
| 2 | Mühərrikin kompüter diaqnostikası |
| 3 | Debriyaj mexanizminin tənzimlənməsi |
| 4 | Təkərlərin bucaqlarının tənzimlənməsi |
| 5 | Təkərlərin dəyişdirilməsi və balans edilməsi |
| 6 | Faraların istiqamətinin tənzimlənməsi |
| 7 | Planlı texniki xidmət cədvəlində göstərilən texniki qulluq |
| 8 | Normal istismar, aşınma və istifadə qaydalarının pozulması ilə bağlı digər işlər və xidmətlər |

# 9. Avtomobil sahibinin öhdəlikləri

1. Bu müqavilə və avtomobilin istismar/texniki qulluq təlimatlarına əməl etmək.

2. Zəmanət çərçivəsində yoxlanış, diaqnostika və təmir üçün avtomobili səlahiyyətli xidmət mərkəzinə təqdim etmək.
3. Yeni avtomobil alarkən rəngləmədə, xarici və daxili işlənmədə qüsurların olmadığını yoxlamaq.
4. Planlı texniki xidmət cədvəlinə uyğun olaraq avtomobilə texniki xidmət keçirmək.
5. Avtomobili mütəmadi olaraq yumaq və lazımi vəziyyətdə saxlamaq.

# 10. Əlavə qeydlər

Rəsmi distribyutor təhlükəsizliyin təmin edilməsi üçün geri çağırma kampaniyası keçirmək, satışda olan və ya satılmış avtomobillərin konstruksiyasına dəyişiklik etmək hüququnu özündə saxlayır.

Zəmanət müddəti ərzində avtomobil yalnız istehsalçı tərəfindən təchiz edilmiş və ya rəsmi distribyutor tərəfindən təsdiqlənmiş texniki xidmət mərkəzində təmir və baxışdan keçirilməlidir.

> **XƏBƏRDARLIQ:** Qeyri-rəsmi texniki xidmət mərkəzində aparılan müdaxilə zəmanətin ləğv olunmasına səbəb ola bilər. Avtomobilə əlavə cihazlar və tyuninq-ə görə, həmçinin yanacağın keyfiyyəti ilə bağlı yaranan nasazlıqlara görə Global Automobiles MMC heç bir məsuliyyət daşımır.

Xüsusi təyinatlı avtomobillər zəmanət xidmətinə aid edilmir.